**Teatrşünas-tənqidçi Anar Ərtoğrul Burcəliyev qələmə aldığı tənqidi məqalələri ilə bir daha sübut edir ki, tənqidçinin əsas meyarı həyatın özüdür. Müəllif bu kimi məqalələrində qayğıkeş və diqqətli olmaqla, sənətkarların yaradıcılıq yolundakı real, qaçılmaz çətinliklərini aydın dərk etməklə onların yaradıcılıq müvəffəqiyyətlərini görür və hətta bütün bu sadalananlara sevinməyi belə bacarır.**



Fərruxə UMAROVA

# 50 yaşın astanasında



O, Nizami yurdu - qədim Gəncədə dünyaya gəlib və Gəncə torpağında böyüyüb, boya-başa çatıb. Taleyin qismətindən iki böyük sənətkarın ailəsində dünyaya göz açıb. Hətta deyərdim ki, Gəncə Dövlət Milli Dram Teatrının divarları arasında böyüyüb. İlk əmək fəaliyyətinə də elə buradan başlayıb. Taleyini valideynləri olan qocaman səhnə ustaları, Respublikanın Xalq artistləri - Məhəmməd Burcəliyev və Sədayə Mustafayevanın sənət yolundan bəhrələnməklə teatr aləminə bağlayıb. Bu gün tək Gəncədə deyil, Qərb regionunda yeganə teatrşünas-tənqidçi olaraq fəaliyyət göstərməklə Gəncə Dövlət Milli Dram Teatrının Ədəbi-hissə müdiri olaraq çalışmaqdadır. Söhbət teatrşünas-tənqidçi Anar Ərtoğrul Burcəliyevdən gedir.

Ömür yolunun 50-ci baharına qədəm qoyan Anar Ərtoğrul Burcəliyevin bu gün Gəncənin mədəni-ictimai həyatında müstəsna yeri var. Fəaliyyəti dövründə Qərb regionunun mədəniyyət tarixinin ensiklopediyasını yaradan Anar Ərtoğrul Burcəliyev respublikada çapdan çıxan qəzet və jurnallarda 450-dən artıq məqalə, resenziya, oçerklərin və eləcə də müsahibələrin müəllifi, həmçinin "Əsl el adamı", "Səhnə həyat nurumdur", "Azərbaycan kinosunun tarixi və inkişafı", "Qoşa qanad", "Məqalələrim, resenziyalarım, oçerklərim və müsahibələrim" (II cildlik), "Onun dünyası", "Xalq şairi olmayan xalqın şairi", "44 günlük Zəfər tarixinin Gəncə şəhidləri", "Qalib əsgərin hekayəti", "Qalib əsgərin hekayəti - Göygöl rayonu", "Milli mədəniyyət tariximiz Heydər Əliyev ideyalarında", "Teatr, zaman və məkan" adlı kitabların, eləcə də "Xoşbəxt bürc altında", "Xocalı - Unuda bilmədiklərimiz", "Gəncə Tibb Kolleci - 80" sənədli televiziya filmlərinin ssenari müəllifidir.

Bu gün qeyd etmək istərdim ki, Anar Ərtoğrul Burcəliyevin dövri mətbuat səhifələrində nəşr olunan məqalələri ilə tanış olarkən, bir daha görürsən ki, onun yazı üslubu tamamilə fərqli, mövzu baxımından yanaşma tərzində isə məqsədi geniş planda toplumun teatr yaşamını inkişaf etdirmək, teatr sənətini, sənətçisini, habelə tamaşaçını xəbərdar etməklə inkişaf mexanizmlərini sadə dillə oxucusunun diqqətinə diktə etməkdən ibarətdir. Onun qələminin məhsulu olan hər bir yazının üslubu və cümlə quruluşu belə, sadə olmaqla yanaşı, tək paytaxt Bakıda fəaliyyət göstərən teatrlarımızın deyil, eləcə də regionlarda fəaliyyət göstərən teatrların hər birinin öz missiyası, teatr estetikası, dəstixətti olduğunu geniş tamaşaçı auditoriyasının, oxucu zehninin dərinliklərində iz salmasına yönəldilməsidir. Təbii ki, bütün bunlarla yanaşı, Anar Ərtoğrul Burcəliyev hər zaman öz yazılarında obyektiv və adildir. Bu xüsusiyyətlər isə onun yaradıcılıq üslubunu tamamlaya bilən kateqoriyalar siyahısına daxildir. Onun yaradıcılığına nəzər salarkən, Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Respublikanın Əməkdar artisti Xəzər Gəncəli yazır: "Məncə, ideal teatrşünas savadına və zəngin məlumatına istinad edərək, öz tənqidi yazılarında tamaşanı dürüstlüklə tanıdan bir şəxsiyyətdir. Tənqidçinin vəzifəsi qapıları çırpmaq deyil, qapıların necə və haraya açıldığına işarət etməkdir. Tənqidçi əmr verməz, yol göstərər. Anar Ərtoğrul Burcəliyev də öz yaradıcılığını məhz bu tendensiyalar kontekstində kökləməyə müvəffəq ola bilmişdir".

Yaradıcılığının ilkin dönəmlərində (1989-2000) "Solğun çiçəklər", "Bəxtsiz cavan", "40 il səhnə arxasında", "Fosforlu Çevriyyə" "İntizar", "Yandırılmış adam", "Ölüm hökmü", "Əbədi diriyəm mən", "Səhnəmizin yetirmələri", "Zirzəmidən başlanan yol" kimi qələmə aldığı məqalələrində müasir həyat problemlərinin bədii həllinə daha çox üstünlük verməklə yanaşı, burada hər bir sənətkara qarşı xüsusi diqqət yetirməyin necə zəruri olmasını son dərəcə mənalı mülahizələrlə göstərməklə bədii əsərin, tamaşanın həyatiliyini, inandırıcılığını, aktyor və rejissorlarımızın səhnədə yaratmış olduqları yeni insan surətlərini, həyat səhnələrini bacarıqla təqdiminə müəffəq olmasından yaranan maraqlı, dolğun səhnələrin işıqlandırılmasına fikri yönəltmək ifadə vasitələrində diqqəti hər zaman cəlb etməkdədir.

Teatrşünas-tənqidçi Anar Ərtoğrul Burcəliyev qələmə aldığı tənqidi məqalələri ilə bir daha sübut edir ki, tənqidçinin əsas meyarı həyatın özüdür. Müəllif bu kimi məqalələrində qayğıkeş və diqqətli olmaqla, sənətkarların yaradıcılıq yolundakı real, qaçılmaz çətinliklərini aydın dərk etməklə onların yaradıcılıq müvəffəqiyyətlərini görür və hətta bütün bu sadalananlara sevinməyi belə bacarır.

Onun yaradıcılığının ikinci mərhələsində (2000-2019) qələmə aldığı "Teatr, zaman və məkan", "Bəşəri ideyalı pyeslər ölmür", "Tamaşaçının dalınca qaçmağa məcburuq", "Uzun ömrün akkordları", "80 yaş nədir ki...", "Qədim şəhərin teatr tarixindən", "Bioqrafik faciəvi eşq ayini", "Sidqi Ruhulla haqqında dəyərli monoqrafiya", "Sənət fədailəri və ya unudulmağa məhkum olanlar" silsilə yazıları və s. bu kimi məqalələr toplusu milli teatrımızın qarşısında duran problemlərdən, onun estetik prinsiplərindən bəhs edir. Hər zaman olduğu kimi, yenə də qeyd edilən bu məqalələrindən də hiss olunur ki, onun özünə xas olan fikri, düşüncələri, meyilləri, özünün estetik prinsiplərilə üzvi şəkildə bağlı olmaqla yanaşı hər zaman mövcud olub və bu gün də mövcuddur. Yazıçı-dramaturq Nüşabə Əsəd Məmmədli teatrşünas-tənqidçi Anar Ərtoğrul Burcəliyev yaradıcılığının səciyyəvi xüsusiyyətlərindən söhbət düşərkən deyir: "Onun yaradıcılığının səciyyəvi xüsusiyyətlərindən biri də budur ki, o, teatrşünas tənqidi ilə ədəbi tənqidi bir araya gətirərək nəzəriyyə problemlərini də öz yazılarında daha geniş şəkildə təhlil etməyə müvəffəq ola bilir. Bununla da teatrşünas Anar Ərtoğrulla, ədəbiyyatşünas Anar Ərtoğrul arasındakı məsafə və fərq bir o qədər də gözə çarpmır. Belə bir tənqidçinin yaradıcılıq üsulu hazırlanan tamaşalarda bədii yaradıcılıq haqqındakı təsəvvürləri daha da genişləndirir, bədii zövqü, estetik anlayışı bilavasitə zənginləşdirmiş olur. Anar Ərtoğrul Burcəliyevin yaradıcılıq üslubu bu baxımdan mənim üçün doğmadır".

Qeyd etməliyəm ki, Anar Ərtoğrul Burcəliyev bir çox yazılarında bilavasitə yazarın ali məqsədi, rejissorun şərhi, aktyorların bu şərhə istinadən ifa tərzləri və tamaşaçı reaksiyasına da xüsusi diqqət yetirməklə onun ali məqsədini oxucusunun diqqətinə çatdıra bilir. Bununla da o, tamaşanın ali məqsədindən irəli gələrək rejissor traktofkası ilə aktyorun səhnədəki ifası arasında bir uyğunsuzluq görərsə, dərhal maraq doğuran detallar vasitəsilə ifadə vasitələrinin zənginliyi ilə diqqət mərkəzində saxlamağı bacarır. Həmçinin qeyd etmək lazımdır ki, Anar Ərtoğrul Burcəliyev yazılarında teatrın məhsulu olan tamaşalarını dəyərləndirərkən, xüsusi olaraq forma və məzmun nöqteyi-nəzərindən bütün detalları, parçaları maraqla çözür, pyesin yazıldığı dönəmi, yazarın yaradıcılıq xüsusiyyətlərini, pyesin yazılması səbəblərini, eləcə də rejissorun dünyagörüşü və çalışma sistemini hər zaman oxucusunun diqqətində saxlamağı bacarır. Respublikanın Əməkdar mədəniyyət işçisi, şair-dramaturq, Azərbaycan Yazıçılar Birliyi Gəncəbasar bölməsinin sədri Xəzangül onun qələmə aldığı "Xalq şairi olmayan, xalqın şairi" kitabı haqqında yazır: "Bəlkə də bu kitab çoxdan doğulmalı idi. O bu doğuluş üçün zamanının gecikdiyini fikirləşdiyi bir vaxtda Anar Ərtoğrul Burcəliyev, sanki dövranın zaman arzusunun reallığını öz üzərinə götürmüş oldu. Bir növ, haradasa unudulmuş, ədəbi mühitin gizli yaddaşında gizli qalan Novruz Gəncəli haqqında kitabın ərsəyə gəlməsində bir növ, özünün cavabdeh olduğunu qarşısına məqsəd kimi qoydu. Bu məqsəd Novruz Gəncəli ruhunun Anar Ərtoğrul Burcəliyev fədakarlığından şad olmasına bütün varlığımla inanıram".

Qeyd etməliyəm ki, müəllifin qələmə aldığı bütün kitablarında teatrşünaslıq elminin başqa bir cəhəti - sənətkarla ictimai həyat, sənət əsəri ilə zaman, dövrün bədii-estetik qanunları arasındakı mütəqabil əlaqə, elmi ümumiləşdirmə səviyyəsində izah edilə bilir. Onun yaradıcılığı söz və ifadə vasitələrində tədqiq etdiyi sahəni mükəmməl öyrənməsi ilə yanaşı, müasirlik duyğusuna tam mənası ilə sahib olması, müasir estetik fikrin xüsusiyyətlərini mənimsəməsi təhlil üsulunun əsas cəhətləri kimi özünü göstərə bilir.

Anar Ərtoğrul Burcəliyev "Ölüm ya Ölüm" və ya "Od gəlini" referat məruzəsinə görə Azərbaycan Respublikası Ali Məktəb tələbələrinin XVI Respublika Elmi Konfransının xüsusi diplomu ilə mükafatlandırılmış, "MUGAN-MEDİA" Beynəlxalq mükafatı laureatı adına layiq görülmüş, Azərbaycan Respublikası Prezidenti adından Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illik (1918-2008) yubiley medalı ilə təltif edilmişdir. Həmçinin "Qafqaz-Media" İctimai Birliyinin təsis etdiyi "İlhamlı Azərbaycan" döş nişanı və "Qarabağ-Azərbaycan" diplomu ilə, "Simurq 2021 Awards Azerbaijan" və "Simurq 2023 Awards Azerbaijan" mükafatlarına layiq görülmüşdür.

Teatrşünas-tənqidçi Anar Ərtoğrul Burcəliyev 2011-ci ildən Azərbaycan Teatr Xadimləri İttifaqının, 2017-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin və 2023-cü ildən isə Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Bu gün o, 50 yaşın astanasında yaradıcılığının ən məhsuldar bir dövrünə yenə də Nizami yurdu olan Gəncədə yaşayıb-yaratmaqla davam edir. Ərsəyə gətirmiş olduğu neçə-neçə sənət əsərlərində toplanan materiallar teatrşünasların, eləcə də sənətşünasların ilkin məlumat və araşdırmaları üçün bir mənbə hesab edilə bilər. Bu mənbə bir tərəfdən, ümumazərbaycan teatr tarixinin tədqiqinə ilkin araşdırma ola biləcəksə, digər tərəfdən də, aktyor və rejissorlarımızın sənət yollarının öyrənilməsi baxımından daha əhəmiyyətlidir.